


# ACT UP

SLIENCE = DEATH

## QİÇS-ə Qarşı Dirəniş:

ACT UP (AIDS Coalition to Unleash Power) 1987-ci ildə Nyu Yorkda qurulmuş, QİÇS pandemiyasına qarşı səssiz qalan dövlətlərə, səhiyyə sistemlərinə və əczaçılıq şirkətlərinə qarşı birbaşa fəaliyyət göstərən radikal bir aktivist hərəkatdır. Qrupun əsas məqsədi İİV ilə yaşayan insanların həyatını xilas etmək, tibbi resurslara ədalətli çıxış tələb etmək və QİÇS-lə bağlı qorxu, damğalanma və susqunluğu ifşa etməkdir.

ACT UP yalnız səhiyyə sahəsində deyil, həm də kuir hüquqları, sinif və irq bərabərsizliyi, görünürlülük kimi məsələlərdə də səs çıxaran bir hərəkat olmuşdur.

Onların ən güclü şüarlarından biri olan “Silence = Death” (Susqunluq = Ölüm), qlobal kuir mübarizəsinin simvoluna çevrilmişdir.




Bundan əvvəl, 1987-ci ildə ACT UP Wall Streetdə əczaçılıq şirkətlərinə qarşı kütləvi etiraz keçirmişdi. Şirkətlərin QİÇS dərmanlarının qiymətlərini süni şəkildə yüksək saxlamasına qarşı çıxaraq, “Görün, dərmanlar harada və pullar kimdədir?” şüarı ilə bu ədalətsizliyinə işıq tutmuşdular.

Bundan əvvəl, 1987-ci ildə ACT UP Wall Streetdə əczaçılıq şirkətlərinə qarşı kütləvi etiraz keçirmişdi. Şirkətlərin QİÇS dərmanlarının qiymətlərini süni şəkildə yüksək saxlamasına qarşı çıxaraq, "Görün, dərmanlar harada və pullar kimdədir?" şüarı ilə bu ədalətsizliyinə işıq tutmuşdular.

Təşkilatın digər simvolik aksiyalarından biri də St. Patrick's Katedrali etirazı idi. Katolik kilsəsinin İİV/QİÇS barəsində yaydığı damğalayıcı ritorika və kontraseptivlərə qarşı çıxışı səbəbilə, ACT UP fəalları kilsənin içində kütləvi oturma aksiyası təşkil etmişdilər. Bu cəsarətli addım geniş ictimai rezonans doğurmuşdu və medianın diqqətini cəlb etmişdi.

1992-ci ildə isə "Ashes Action" adlanan aksiyada, İİV/QİÇS-dən vəfat etmiş yaxınlarının külləri Ağ Evin qarşısına səpildi. Bu, dövlətin səssizliyinə qarşı ciddi bir etiraz idi. Hər bir kül zərrəciyi, dövlətin laqeydliyinə qarşı atılmış bir fəryad idi.

ACT UP aktivizmi radikal, yaradıcı və cəsarətli idi. Onlar insanların sağ qalması üçün sistemin sarsıdılmasını vacib sayırdılar. Onların mübarizəsi, həm həyatları xilas etdi, həm də kuir aktivizminin tarixini dəyişdirdi. Məhs buna görə də onların illər öncə yazdığı bu yazını sizlər üçün tərcümə etmişik. Oxuyun, əzizlərim!

**Əlavə not:**

Aşağıdakı "Niyə Kuir?" paraqrafında qeyd olunan kuir ifadəsi, Azərbaycanda əsasən "petux" sözünün istifadəsinə bənzər şəkildə işlədilir. Lakin bu ifadə həm terminoloji, həm də hərəkatla bağlı bir anlayış olduğu üçün mətn boyunca orijinal formada saxlanılmışdır.




# Kuirlər Bunu Oxuyun!

*KUIRLƏR TƏRƏFINDƏN ANONIM ŞƏKILDƏ NƏŞR OLUNUB.*




Həyatınızın təhlükədə olduğunu sizə necə deyim, necə inandırım, ay bacım, qardaşım? Əslində hər gün oyanıb sağ qalmağınız, nisbətən xoşbəxt olmağınız, işləyən bir insan olmağınız başlı-başına bir üsyandır. Siz, sağ qalan və həyatını davam etdirən bir kuirn olaraq inqilabçısınız. Bu planetdə sizin varlığınızı doğrulayan, qoruyan və təşviq edən heç nə yoxdur. Sizin bu sözləri oxumağınız belə bir möcüzədir. Siz çoxdan ölməli idiniz, ən azından bu sistemə görə.

Aldanmayın, bu dünya hetero insanlara məxsusdur və siz bu ana qədər ya ağıllı, ya şanslı, ya da döyüşkən olduğunuz üçün salamat qalmısınız. Hetero insanlar elə bir imtiyaza malikdirlər ki, nə istəsələr edə bilirlər, qorxmadan sevişə bilirlər. Onlar sadəcə qorxusuz bir həyat yaşamırlar, hətta azadlıqlarını üzümüzə çırpırlar. Onların şəkilləri televizorumdadır, aldığım jurnaldadır, yemək istədiyim restorandadır, yaşadığım küçədədir. Mən istəyirəm ki, hetero evliliyinə, uşaqlara, əks cins arasında açıq sevgi nümayişlərinə və heteroseksuallığı təşviq edən media görüntülərinə moratorium qoyulsun. Mən hetero insanlar qədər sərbəst hərəkət edə bilmirəmsə, onların imtiyazı da dayandırılmalıdır və bu imtiyaz mənə və kuir bacı-qardaşlarıma verilməlidir. Hetero insanlar bunu könüllü etməyəcəklər. Ona görə də onları buna məcbur etmək lazımdır. Onlar qorxudulmalıdır. Onlar dəhşətə salınmalıdır. Qorxu ən güclü motivasiyadır. *Haqq verilmir haqq alınır, lazım gələrsə güclə.*

Əgər düşmənin kim olduğunu bilsən, döyüşmək daha asandır. Hetero insanlar sənin düşmənindir. Əgər sənin görünməzliyini tanımır və sənin ölümünə səbəb olan mədəniyyətə töhfə verməyə davam edirlərsə, o zaman onlar sənin düşmənindir. Hər gün birimizi düşmən aparır. Bu, ya homofob hökumət səssizliyindən ölən bir QİÇS xəstəsi, ya da lezbiyanların qaldığı lezbiyan məhəlləsində olan gecə klubunda döyülən bir lezbiyandır.

## SEVGİLİLƏR ORDUSU UDUZMAZ

Kuir olmaq sadəcə “get evində yaşa nə yaşayırsansa deyil” deyil. Bu, açıq şəkildə, ictimaiyyət qarşısında kim olduğumuzu yaşamaq azadlığıdır. Bu, hər gün təzyiqlərə: homofobiya, irqçilik, qadın düşmənliyi, dini ikiüzlülüyün fanatizmi və özümüzə qarşı öyrədilmiş nifrətlə mübarizə deməkdir. (Bizi özümüzdən iyrənməyi sistemli şəkildə öyrədiblər.) İndi isə, əlbəttə, bu həm də virusa qarşı və QİÇS-i bəhanə edərək bizi yer üzündən silmək istəyən homo-düşmənlərə qarşı mübarizə deməkdir.

Kuir olmaq fərqli bir həyat tərzi sürmək deməkdir. Bu, vətənpərvərlik, patriarxiya və ya assimilyasiya olmaqla bağlı deyil. Bu, icraçı direktorlar, imtiyaz və elitalıqla bağlı deyil. Bu, bütün bunların kənarında qalıb, özün özünü təyin etməklə bağlıdır. Bu, cinsiyyətlə bağlı sərhədləri dağıtmaq, gizli qalanları, altımızda və ürəyimizin dərinliklərində olanları ortaya çıxarmaq deməkdir.

Kuir olmaq “xalqın içindən olmaq” deməkdir. Çünki biz bilirik ki, hər birimiz: hər bədən, hər qadınlıq, hər ürək, hər göt və hər penis kəşf olunmağa dəyər bir zövq dünyasıdır. Hər birimiz sonsuz ehtimallar aləmiyik.

Biz bir orduyuq, çünki məcburuq. Biz bir orduyuq, çünki biz güclüyük. (Bizim uğrunda savaşacağımız çox şey var; biz ən qiymətli, nəsli kəsilmək üzrə olan növük.) Biz bir sevgililər ordusuyuq, çünki sevginin nə olduğunu biz bilirik. Arzunu və ehtirası da. Onları biz yaratmışıq. Biz dolabdan çıxırıq, cəmiyyətin rəddinə, gülləbaranına sinə gəririk. Yalnız bir-birimizi sevmək üçün!

## *Hər dəfə sevişəndə, biz qalib gəlirik.*

Biz özümüz üçün savaşmalıyıq (çünki bizim yerimizə bunu heç kim etməyəcək). Əgər bu mübarizə nəticəsində dünyaya daha çox azadlıq gətirə biliriksə, nə əla. (Biz bu dünyaya çox şey vermişik: demokratiya, bütün incəsənətlər, sevgi, fəlsəfə və ruh anlayışı - bunların hamısı qədim yunan lezbiyan və geylərimizdən bir neçə nümunədir.) Gəlin hər məkanı Lezbiyan və Gey məkanı edək. Hər küçə bizim seksual coğrafiyamızın bir parçası olsun. Həsrət şəhəri və sonra isə tam doyum şəhəri olsun. Elə bir şəhər və ölkə olsun ki, orada təhlükəsiz, azad və daha çox şey ola bilək.

Gəlin həyatımıza baxaq və içində nə yaxşıdırsa onu görək, nə kuir, nə naturaldır bunu fərqləndirək və natural olan qırıntıları ataq! Unutmayın, vaxt çox- çox azdır və mən sizin hər birinizi sevmək istəyirəm.

**Gələn il çılpaq yürüyəcəyik.**






# GÜCLÜ BACILAR QARDAŞLARA DEDİ Kİ:

**Qarşıdan gələn inqilablar haqqında yadda saxlamalı olduğunuz iki vacib şey var. Birincisi, biz eşşək kimi döyüləcəyik. İkincisi, biz qalib gələcəyik.**

## 1.




Mən qəzəbliyəm. Tanımadığım insanlar tərəfindən ölümə məhkum edildiyim üçün qəzəbliyəm. Onlar “Sən ölməlisən”, “QİÇS sənin cəzandır” deyirlər. Minlərlə dollar dəyərində paltarlar və zinət əşyaları ilə bəzənmiş Respublikaçı bir qadın polis həddini aşıb bizə baxaraq başını yelləyir, gülümsəyir, barmağını tərpədir. Elə bil biz ağlını itirmiş uşaqlarıq, absurd tələblər irəli sürürük və yerinə yetirilməyəndə dəli oluruq.

Yusif AZT ( Zidovudin) dərmanı üçün ayda 8.000 dollar ödəməli olduğu üçün əzab çəkir hansı ki, bu dərman onu bir az da yaşada bilər, amma eyni zamanda onu öz xəstəliyindən daha çox zəifləndir. Elə buna qəzəbliyəm. Bir adam mənə vəsiyyətindəki vərəsələri artıq beş dəfə dəyişdiyini deyəndə qəzəblənirəm. Çünki miras qoymağa adam qalmayıb. Bütün yaxın dostları ölüb. Bir dəniz qədər böyük yastıq panellərinin ortasında dayananda, ya şam yürüşündə, ya da növbəti matəm mərasimində iştirak edəndə qəzəblənirəm. Mən bir şamla səssizcə yürüməyəcəyəm! O sikilmiş yastığı üstünə bürümək, saçımı yolmaq və Tanrının yaratdığı hər bir dinə söymək istəyirəm. Mən həyatın insanları 20- 30 yaşlarında biçib kənara atdığı bir yaradılışı qəbul etmirəm. Bu, amansız, iyrənc və mənasızdır. İçimdəki hər şey bu absurdluğa qarşı çıxır. Üzümdəki qırışlar göyə tuşlanır, boğazımdan çıxan qırıq-qırıq gülüş şeytani bir çığırtını xatırladır, gözlərimdən yaş axır. Əgər bu xəstəlik məni öldürməsə, bu dünyaya qarşı duyduğum ümidsizlik və qəzəb məni öldürəcək. Ayaqlarım yerə dəyir, Peter-in əlləri bir dərman şirkətinin resptlərinə zəncirlənib. Resepsionist qorxu içində bizə baxır. Erikin cəsədi Bruklindəki qəbiristanlıqda çürüyür və mən bir daha onun fleytasının toplantı otağına qədər gələn səsini eşitməyəcəyəm. “Tompkins Square” Parkındakı qocaları görürəm. İyun ayında uzun yun paltoya bürünüblər, çünki bədənləri artıq istiliyi hiss etmir və həyatın onlara verdiyi son qırıntılara yapışıblar. Mən hər gecə soyunub güzgü qarşısında təzə çıxmış iz axtaran insanları xatırlayıram. O iz  bu lənətin onların da qapısını döydüyünün sübutudur. Qəzəbliyəm, çünki qəzetlər bizi “qurban” adlandırır və

“bu artıq ümumi əhaliyə də yayıla bilər!” deyə təlaş yaradır. Və mən qışqırmaq istəyirəm: “Bəs mən kiməm, ay şərəfsizlər?!” Nyu-York Xəstəxanasına da qəzəbliyəm, sarı plastik torbalara “izolyasiya üçün paltar”, “ropa infecciosa” yazıblar. Sanitarlar əlcək və maska taxıb yatağa yaxınlaşmağa qorxurlar, sanki oradakı adam ayağa qalxıb onlara qan və sperma atacaqmış kimi. Hetero insanların özlərini monoqamiya və heteroseksuallıqla qorunmuş hiss etməsinə qəzəbliyəm. Onlar özlərinə əmindirlər ki, bu xəstəlik onlarla əlaqəli deyil. Çünki bu “onlara” olur, “bizə” yox. Gənc oğlanlar “Səssizlik= Ölüm” (Silence=Death) düyməmi görəndə “faggot’s gonna die” (“bax bu petux öləcək”) deyə qışqırmağa başlayır. Onlara bunu kim öyrədib? Qəzəb və qorxu içində susuram, sinəmə taxdığım pini lağa qoyurlar. Televiziyada bir proqramda ölmüş insanların həyatından danışırlar. Qaradərili bir körpə ilə başlayır, qan köçürməsi almış yeniyetmə qız, yaşlı baptist rahib və onun həyat yoldaşı…və nəhayət bir gey kişini göstərirlər. Amma onu “şüurlu şəkildə gənc kişi fahişələrinə virus yoluxduran biri” kimi təqdim edirlər. “Geydən nə gözləyirdiniz ki, deyilmi?” deyirlər. Qəzəbliyəm.

## 2. Bir Günlük Don Geyinmək Çox Şey Öyrədə Bilər

Zamanın başlanğıcından bu yana dünya kuir sənətçilərindən ilham alıb. Əvəzində isə ağrı, əzab, zorakılıq görüblər. Tarix boyu cəmiyyət kuir vətəndaşları ilə bir sövdələşmə bağlayıb: sənətə yönələ bilərsən, amma bunu sakit və gizli et. Kuirlər sənət vasitəsilə məhsuldar, gəlirli, əyləncəli və hətta ilhamverici olurlar. Bu, guya “antisosial davranış”ın faydalı məhsullarıdır. Mədəni muhitlərdə kuirlər cəmiyyətin hökmran elitası ilə səssizcə birgə yaşaya bilirlər. Son dövrlərdə kuir sənətçilərə qarşı hücumların önündə “əxlaqın”, “xristianlığın” və “amerikalılığın” guya qoruyucusu Jesse Helms durur. Helms üçün kuir sənəti dünyanın təhlükəsidir. Onun təsəvvüründə heteroseksual mədəniyyət elə bir həssas strukturdur ki, insan və seksual müxtəlifliyin etirafına belə dözə bilməz. Yəhudi-Xristian güc strukturunda nizamın təməli çoxalmaqdır. Ailələrin uşaq dünyaya gətirməsi istehlakçı deməkdir, işçi qüvvəsi deməkdir, xəstəyə qulluq edən qohum deməkdir. Beləliklə, dövlət səhiyyəsinə xərclər azaldılır. Bütün çoxalmaya qarşı davranışlar təhdiddir. Bura homoseksuallıq da, doğum nəzarəti də, abort hüququ da daxildir. Dini sağçılara görə yalnız heteroseksuallığı və çoxalmaya yönəlik həyatı təbliğ etmək yetmir. Alternativləri tamamilə məhv etmək də vacibdir. Helmsin hədəfi sadəcə sənət deyil… hədəf bizim həyatımızdır! Sənət, lezbiyan və geylərin yaşamağı üçün qalan sonuncu təhlükəsiz yerdir. Helms bunu bilir və bu yeganə sahədən bizi də qovmaq üçün proqram hazırlayıb. Helms fərqliliyin və fikir ayrılığının olmadığı bir dünya istəyir və bu, gücü əlində saxlayanlar üçün niyə daha rahat olduğunu təsəvvür etmək çətin deyil. Amma bunun nəticəsində Amerikanın necə bir ölü mənzərəyə çevriləcəyini də düşünmək çətin deyil. Helms, istədiyini açıq de! De ki, dövlət tərəfindən nəzarət olunan sənət istəyirsən, totalitarizmin sənətini, yalnız xristian terminləri ilə danışan sənəti, güc sahiblərinin məqsədlərinə xidmət edən sənəti, Oval Ofisdəki divana uyğun sənəti istəyirsən. Nə istədiyini de ki, biz də vicdanlı insanlar olaraq sənə qarşı birləşə bilək. Necə ki başqa ölkələrdə insan

haqları pozuntularına qarşı mübarizə aparırıq, öz ölkəmizdəki dissidentləri də azad etməliyik. Bir gün don geyinmək ömrünün sonuna qədər kostyum geyinməkdən daha çox öyrədir.

## 3. Əgər Kueerssənsə,




Kuirlər hücum altındadır. Hər tərəfdən hücuma məruz qalırıq və qorxuram ki, biz bununla razılaşmışıq. 1969-cu ilin yalnız May ayında 50 "kuirə hücum" baş vermişdi. Həmin ayda 3720 kişi, qadın və uşaq QİÇS-dən daha amansız bir hücumun nəticəsi olan dövlətin səssizliyi və artan ictimai homofobiyadan dolayı öldü. Bu, sistemləşdirilmiş zorakılıqdır və bəlkə də ən təhlükəlisidir. Çünki bu hücumların arxasında üz yoxdur. Biz bu hücumlara öz səssizliyimizlə şərait yaradırıq. QİÇS artıq heteroların da dünyasına təsir edib və indi bizi günahlandırırlar. Bizi günahkar bilirlər və bu xəstəliyi bəhanə edərək bizə qarşı zorakılığı haqlı çıxarmağa çalışırlar.. Artıq bizi istəmirlər. Bizi döyəcəklər, zorlayacaqlar, öldürəcəklər, amma bizimlə birgə yaşamaq istəməyəcəklər. Bunun normallaşdırılmaması üçün nə lazımdır? Biraz qəzəblən. Əgər qəzəb güc vermirsə, qorxu ilə cəhd et. O da işə yaramırsa, panika ilə.

**QIŞQIR!**

Qürur duy! Səni adiləşmiş qəbul vəziyyətindən qoparacaq nə lazımdırsa et. Azad ol. Qışqır. Üsyan et. 1969-da kuirlər müqavimət göstərdi. 1990-da isə kuirlər "Okey" deyirlər. Gələn il hələ burda olacağıqmı?

## 4. Mən Jesse Helmisə Nifrət Edirəm.

Helms ölsə, sevinərəm. Biri onu öldürsə, onun öz günahı olar. Ronald Reyqana da nifrət edirəm. Çünki o, səkkiz il ərzində xalqımı kütləvi şəkildə qətlə yetirdi. Amma əslində ona daha çox ona görə nifrət edirəm ki, Ryan Vaytı tərifləyərkən ilk növbədə öz günahını etiraf etmədi, üzr istəmədi. Ryan-ın və on minlərlə başqa QİÇS-lə yaşayan insanların əksəriyyəti kuir idi. Ona görə nifrət edirəm ki, bizim matəmimizi lağa qoydu. Mən o sikilmiş Papadan da nifrət edirəm. Con Kardinal Occonordan da nifrət edirəm. Bütün sikilmiş Katolik Kilsəsindən nifrət edirəm. Ordudan, xüsusilə Amerikanın polis qüvvələrindən: dövlət tərəfindən dəstəklənən sadistlərdən, küçə translarını, seks işçilərini, kuir

məhbusları döyən polis məmurlarından nifrət edirəm. Tibb və psixoloji sağlamlıq sistemindən də nifrət edirəm, xüsusən də məni üç il kişi ilə yatmaqdan çəkindirmiş psixiatrdan. Deyirdi ki, guya "ən azından" biseksuala çevrilənə qədər (yəni onun nəzərində "düzələnə" qədər) seks etməməliyəm. Təhsil sistemindən də hər il minlərlə kuir gənci intihara sürüklədiyi üçün nifrət edirəm. "Hörmətli" sənət dünyasından, əyləncə sektorundan və mediadan, xüsusilə "The New York Times"dan nifrət edirəm. Əslində bu ölkədəki heteroseksual sistemin bütün sahələrindən nifrət edirəm. Bunların pisi kuirlərin ölməsini istəyir, ən yaxşısı isə yaşamağımız üçün səsini çıxarmır. "Coming out" (özünü açmaq) haqqında ağzında söz gəzdirən natural insanlardan nifrət edirəm. Öz hekayələrinin "ümumbəşəri" olduğunu, bizim hekayələrimizin isə sadəcə "homoseksuallıqla bağlı" olduğunu düşünən heterolardan nifrət edirəm. Karyeralarını kuirlərin sayəsində qurub, sonra bizə hücum edən, biz hirslənəndə "gözləmirdik" deyən və heç vaxt üzr istəməyən musiqiçilərdən nifrət edirəm. "Bu pinləri taxmağın nə mənası var? Mən də durub hər kəsə natural olduğumu demirəm ki" deyən naturallara nifrət edirəm. On iki illik dövlət təhsilində kuirlər haqqında heç nə öyrədilməməyindən nifrət edirəm. Dünyadakı yeganə kuir olduğumu düşünərək böyüməyimdən nifrət edirəm. Daha çox nifrət edirəm ki, bu gün də minlərlə kuir uşaq eyni şəkildə böyüyür. "Petux" deyə çağırılıb digər uşaqlar tərəfindən əzab çəkməyimə nifrət edirəm. Amma daha çox nifrət edirəm ki, bu zorakılığa görə özümü günahkar hiss etməyim öyrədilib. Amerika Ali Məhkəməsinin mənim sevişmə tərzimə görə məni cinayətkar adlandırmasına nifrət edirəm. Həyatımda bu qədər hetero insanın cinsi həyatımla maraqlanmasına nifrət edirəm. Nə qədər psixoloji gic hetero varsa valideyn olur. Amma mən atalıq hüququ uğrunda döyüşməli oluram. Heterolardan nifrət edirəm.

## 5.Hardasınız, Baxılar?

***Görünməzliyimiz bizim məsuliyyətimizdir.***

Mən hər yerdə çəhrayı üçbucaq taxıram. İctimai yerlərdə lezbiyan sevgi və seks haqqında danışanda səsimi alçaltmıram. Heç kimin "sevgilin var?( kişi nəzərdə tutulmuşdur) sualını gözləmədən lezbiyan olduğumu deyirəm. " Bunun sənə dəxli yoxdur" da demirəm. Bunu hetero insanlar üçün etmirəm. Çünki onların çoxu çəhrayı üçbucağın nə olduğunu bilmir. Çoxu vecinə də almır ki, mən və sevgilim bir-birimizə aşiqik ya da küçədə dalaşırıq. Çoxu bizi nə etsək də fərqinə varmır. Bunu başqa lezbiyanlara çatmaq üçün edirəm. İstəyirəm ki, digər lezbiyanlar məni natural qız zənn etməsinlər. Mən hər yerdə daim açığam, çünki SƏNƏ ÇATMAQ İSTƏYİRƏM. Bəlkə məni görərsən. Bəlkə danışarıq. Bəlkə nömrələşərik. Bəlkə dost olarıq. Bəlkə heç danışmayacağıq, sadəcə göz-gözə gələcəyik və mən səni xəyalımda soyunduracağam, tərin içində, ağzın açıq, kürəyin qıvrılmış şəkildə, mən səninlə sevişəcəyəm. Və biz xoşbəxt olacağıq. Çünki bu dünyada tək olmadığımızı anlayacağıq. Xoşbəxt olacağıq. Çünki bir-birimizi tapacağıq. Bəlkə cəmi bir anlıq, heç danışmadan. Amma yox. Sən o kətan pencəyin yaxasına çəhrayı üçbucaq taxmayacaqsan. Sən küçədə səninlə flört edəndə gözümə

baxmayacaqsan. Məni işdə görməzliyə vuracaqsan ki, mən “çox” açığam. Barlarda məni danlayacaqsan ki,  “çox siyasi”yəm. İctimai yerlərdə məni görməzliyə vuracaqsan ki, “lezbiyanlığımı çox nümayiş etdirirəm.” Amma sonra istəyirsən ki, səni sevim. İstəyirsən ki, dostun olum. İstəyirsən ki, səni dəstəkləyim. İstəyirsən ki, “BİZİM” yaşamaq haqqımız uğrunda savaşım.

**HARADASINIZ?**

Dayanmadan görünməzlikdən danışırsınız, sonra isə evinizə çəkilib sevgilinizlə yuva qurur, ya da bara dostlarınızla gedib əylənib sonra taksi ilə evə qayıdırsınız. Ya da sakit və nəzakətli şəkildə ailənizin, patronunuzun, qonşularınızın, dövlət məmurlarınızın bizi təhqir etdiyini, bizi çirkinləşdirdiyini, şəxsiyyətimizi alçaldıb, cəzalandırdığını izləyirsiniz. Sonra yenidən evə qayıdırsınız və qışqırmaq istədiyinizi hiss edirsiniz. Qəzəbinizi bir münasibət, bir karyera və ya sizin kimi digər lezbiyanlarla bir partilə ört-basdır edirsiniz. Və sonra hələ də təəccüblənirsiniz ki, niyə bir-birimizi tapa bilmirik, niyə özümüzü yalnız, qəzəbli, uzaq hiss edirik.

**QALXIN, OYANIN, AY BACILAR!**

Sizin həyatınız öz əlinizdədir. Mən özümü riskə atıb açıq oluramsa, bunu tək özüm üçün yox, ikimiz üçün edirəm. Mən risk edirəm və əksər hallarda bunun nəticəsini də alıram. Nəticəsini görəndə həm mən qazanıram, həm də sən. Amma nəticə verməyəndə əziyyət çəkən mən oluram, sən yox. Amma, qızım, bu dünyanı sənin üçün daha təhlükəsiz etmək üçün digər lezbiyanların mübarizəsini gözləyə bilməzsən! Daha yaxşı, daha açıq “lezbiyan gələcək” gözləmə! Əgər biz başlatsaq, inqilab burda da ola bilər. Haradasınız, bacılar? Mən si axtarıram. Səni axtarıram. Niyə yalnız “Gay Pride” Günündə görünürsən?

**Biz ÇIXMIŞIQ! BƏS, SƏN HARADASAN?!**

## 6.Əgər Kimsə Səni Kuir Olduğun Üçün Döyürsə, Bu - Kuir Bashingdir. Doğru deyilmi?

Gecə bağlanan bir gey bardan 50 nəfərlik bir izdiham çıxır. Küçənin o biri tərəfində bir qrup natural oğlan “Petux, qəhbə!” deyə bağıraraq şüşə pivə butulkaları atır. Sayca onlardan on qat çox olan bu çoxluq içində yalnız üç kuir cavab verməyə çalışır qalanlardan heç bir dəstək gəlmir. Belə say üstünlüyü olan bir qrup niyə sakitcə döyülməyi gözlədi? Tompkins Meydanı Parkı, Əmək Günü. Açıq havada keçirilən konsert/drag şousu zamanı, bir qrup gənc əlində dəyənəklərlə geyləri narahat edir. Minlərlə lezbiyan və geyin içində bu hetero oğlanlar iki geyi yerə sərir və sonra bir-birinə gülərək, fəxrlə baxırlar. Aparıcı səhnədən insanları xəbərdar edərək deyir: “Qızlar, ehtiyatlı olun.

Geyindiklərinizlə oğlanları dəli edirsiniz.”. Elə bil bu, oradakı hər kəsə qarşı yönəlmiş ciddi bir hücum deyil, qurbanların nə geyindiyinin sorğulandığı ironik bir zarafatdır. James Zappalorti, Staten Islandda qışda soyuqqanlı şəkildə öldürülmüş açıq geydir. Bu hadisəyə etiraz olaraq yalnız bir aksiya təşkil edilib. Cəmi yüz nəfər qatılıb. Eyni zamanda Yusef Hawkins adlı qaradərili gənc, Bensonhurst adlı “ağlara məxsus” ərazidə olduğu üçün güllələnib. Nyu-Yorkun müxtəlif bölgələrindən qaradərili insanlar dəfələrlə həmin məhəllədə etiraz yürüşləri keçiriblər. Bir qaradərili insan SADƏCƏ QARADƏRİLİ OLDUĞU ÜÇÜN ÖLDÜRÜLÜB və insanlar bunu tanıyıb, qəbul edib, hərəkətə keçib. Havkinsə dəyən güllə hər bir qaradəriliyə atılmışdı. Amma sizcə, Zappalortinin ürəyini deşən bıçaq yalnız onumu hədəfə almışdı? Hetero dünya bizə gücsüz və zorakılığı haqq edən qurbanlar olmağı o qədər inandırıb ki, təhlükə ilə üz-üzə gələndə yerimizdə donub qalırıq. QƏZƏBLƏN! BU HÜCUMLARA DÖZMƏ! HƏRƏKƏTƏ KEÇ! Cəmiyyətimizin istənilən kuirinə qarşı edilən istənilən zorakılıq, hər birimizə edilən hücumdur. Homofoblara nə qədər bizə qarşı zorakılıq və hücum etmələrinə icazə versək, onlar daha qəddar bir şəkildə bizi hədəf alacaqlar. Unutma ki, sən çox dəyərlisən. Əgər buna özün inanmasan, bu dəyəri asanca əlindən almağa çalışacaqlar. Əgər özünü müdafiə etməyi bacarırsansa, et. Yox əgər bacarmırsansa, o zaman düşün: Onun gözlərini oyar, burnunu beyninə soxar, boğazını sınıq butulka ilə kəsərsən. Bunu üçün də yaşamaq üçün nə bacarırsansa, onu da et. HƏR NƏ LAZIMDIRSA, ONU ET!

## 7. Yniə Kriu

Eh, bu sözü mütləq istifadə etməliyik? Bu, zəhlətökəndir. Hər geyin bu sözlə bağlı öz hissi, öz yanaşması var. Bəziləri üçün “kuir” qəribə, ekzotik və sirli deməkdir. Bu, pis bir şey deyil, biz bunu bəyənirik. Amma bəzi gey qızlar və oğlanlar belə düşünmür. Onlar düşünürlər ki, “qəribə” yox, daha çox normaldırlar. Bəziləri üçünsə “kuir” sözü yeniyetməlik dövrünün o dəhşətli acı xatirələrini canlandırır. Kuir. Ən yaxşı halda acı ilə şirin arasında bir nostalgiya yaradır. Ən pis halda isə zəiflədən və ağrılı bir sözdür. Bunun yerinə sadəcə “gey” demək olmazmı? Bu daha parlaq səslənir. Axı “happy” (xoşbəxt) deməkdir, elə deyilmi? Nə vaxt bu radikal gənclik böyüyəcək və fərqli olmağın “yeni”liyini geridə qoyacaq?

### Niyə Kuir?

Bəli, “gey” gözəl sözdür. Onun da öz yeri var. Amma bir çox lezbiyan və gey səhər oyananda xoşbəxt deyil, qəzəbli və iyrənmiş hiss edir. Ona görə biz özümüzü kuir adlandırmağı seçmişik. Kuir demək, dünyanın bizi necə gördüyünü özümüzə xatırlatmaq deməkdir. Bu, o deməkdir ki, biz düz dünyada öz həyatını gizlədən, sevimli və ağıllı görünməyə məcbur olan insanlar olmaq məcburiyyətində deyilik. Kuir olmaq kollektiv bir müqavimət göstəricisidir. Kuir, “gey” kimi yalnız kişilərə aid edilmir. Və bu söz,

digər gey və lezbiyanlara yönəldikdə, heç olmasa müvəqqəti olaraq birlikdə olduğumuzu xatırlatmaq üçündür. Çünki hər birimizin qarşısında dayanan ortaq və daha təhlükəli bir düşmən var. Bəli, KUİR sərt səslənə bilər, amma bu söz həm də hiyləgər və kinayəli bir silahdır. Homofobların əlindən alıb, özümüzə qarşı yönəldilmiş nifrətə qarşı istifadə edə bilərik.

## 8. Seksuallığın Nəzarətinə Yox! (No Sex Police)

Kiminsə cinsi kimliyini açıq şəkildə ortaya qoyması sadəcə şəxsi bir addım deyil. Bu, həm də cəmiyyətin normativlərinə qarşı bir müqavimət, görünməz olanı görünən etmə və başqalarına da güc vermək deməkdir. Bu səbəblə, coming out inqilabi bir hərəkətdir və onu bu mübarizədən ayırmaq, bu mübarizənin nə üçün aparıldığını dərk etməmək mənasına gəlir. Çünki insanların seksuallığını utanmadan, sevgi ilə və özlərini qəbul edərək ifadə etdiyi nümunələrdə: filmlərdə, sənətdə, gündəlik həyatda başqalarına da “sən olduğun halınla dəyərlisən” mesajını verir. Bu mesaj insanların özlərini sevməsinə, yaşamağa davam etməsinə və öz varlığını inkar etmədən yaşamasına kömək edir. Bu cür nümunələr həyatları xilas edir. Necə ki, “Black is beautiful” (Qaralar gözəldir) şüarı bir çox həyatları dəyişdirib. “Read my lips” (Dodaqlarıma bax) kimi ifadələr də kuir mövcudluğunu göstərir. Bu görünməzliyin və nifrətin qarşısında buna ehtiyacımız var. Son hökumət araşdırmasına görə, yeniyetmə intiharlarının üçdə biri kuir gənclərə aiddir. İİV virusunun 21 yaşdan aşağı insanlar arasında yayılması da bu reallığı gücləndirir. Bizə olan nifrətin əsas səbəbi seksuallığımızdır. Eyni cinslə bədən təmasıdır. Bizim seksuallığımız və onu ifadə etməyimiz, bizi fiziki zorakılığa ən çox açıq edən şeydir. Fərqliliyimiz, başqa olmağımız, özünəməxsusluğumuz bizi ya kor edə, ya da siyasi gücə çevirə bilər. Ümid edirik ki, əksəriyyətimiz bunun bizi məhv etməsinə imkan verməyəcək.

## 9.Niyə Naturalları Kuir Klublarına Buraxırıq?

Niyə dünyada naturalları kuir klublarına buraxırıq? Bizi “əylənməyi çox yaxşı bacarırlar” deyə bəyəndiklərinə görəmi? Biz məcburuq əylənməyə. Çünki onların bizdə yaratdığı stressi ancaq belə ata bilirik! Onlar istədikləri yerdə öpüşüb, bir- birilərinə toxunub, bütün rəqs meydanını zəbt edib, öz “göstərişli cütlük rəqslərini” nümayiş etdirirlər. Bu insanlar heteroseksual olduqlarını o qədər açıq və vurğulayıcı şəkildə göstərirlər ki, sanki bununla başqalarına “bura sənin yerin deyil” demək istəyirlər. Eyni zamanda, qarşı tərəfdəki insan üzərində mülkiyyət qurmağa çalışırlar. Sanki bu məkanlar onlar haqqı imiş kimi, özümüzü onlara dözməyə niyə məcbur edirik ki? Niyə biz heteroseksuallığı (yəni onların bizə qarşı istifadə etdiyi silahı) bizim yeganə açıq olduğumuz yerlərimizdə gözümüzə

soxmalarına icazə veririk? Bizim bir-birimizlə sərbəst və qorxusuz azsaylı yerlərdə belə onlar bizim azadlığımızı pozurlar. Artıq naturalların bütün qaydaları qoymasına icazə verməyi dayandıraq!

## Başlayaq bu elanla, hər bir kuir klubunun və barının qarşısında:

**NATURALLAR ÜÇÜN DAVRANIŞ QAYDALARI**

1. Eşq nümayişlərinizi (öpüşmək, əl-ələ tutmaq, qucaqlaşmaq) minimuma endirin. Sizin seksuallığınız burada bir çox insan üçün arzuolunmazdır.
2. Əgər romantik rəqs etmək istəyirsinizsə, bunu mümkün qədər ortalıqda etməyin.
3. Lezbiyan və geylərə, xüsusən də “bull dyke” və drag queen-lərə baxmaq, onları tamaşa etməkdən zövq almaq olmaz. Biz sizin əyləncəniz deyilik.
4. Əgər eyni cinsdən birinin sizə yaxınlaşmasına dözə bilmirsinizsə, çıxın məkandan.
5. Heteroseksuallığınızı açıq nümayiş etdirməyin. Məhrəm olun.
6. Əgər bu qaydaların ədalətsiz olduğunu düşünürsünüzsə, hetero klublarda homofobiya ilə mübarizə aparın, ya da
7. Sikdirin.

## Mən naturalla nifrət edirəm




Mənim natural dostlarım da var və nadirən onlarla görüşürəm. Onları görmək, necə olduqlarını bilmək, uzun və mürəkkəb tanışlıqlarımıza yeni səhifə əlavə etmək istəyirəm. Amma hər il anlayıram ki, mənim həyatım onların üçün əhəmiyyətsizdir. Mənim dediklərimə ala-yarımçıq qulaq asırlar. Çünki mən onlar üçün güc və imtiyaz dünyasının bir əlavəsiyəm. “Sən düz danışmırsan” deyir natural dostlarım. Cəmiyyətdə güc və imtiyaz balansı çox zaman dəyişmir. Cəmiyyətin normalarının kənarında qalan insanlar, yəni azadlıqları məhdudlaşdırılan, diskriminasiyaya məruz qalan insalar cəmiyyət tərəfindən qəbul olunmaq və bərabər hüquqlara sahib olmaq üçün mübarizə aparırlar. Amma

cəmiyyətin “içində” olanlar, yəni artıq imtiyaz sahibi olanlar, bu kənardakı insanların bir qismini qəbul etdikdən sonra, “Artıq siz bərabərsiniz, problem yoxdur” deyə məsələnin kökündə duran ədalətsizliyi görməzdən gəlirlər. Başqa sözlə, sistemdə ciddi dəyişiklik etmədən sadəcə görünüşdə az sayda insana yer verilir və bu, daha dərin və strukturlaşmış ayrıseçkiliyin üstünü örtmək üçün istifadə olunur. Bu dinamika hər yerdə özünü göstərir:

- Kişilər qadınları çıxdaş edirlər

- Ağdərililər qaradərililəri sistemdən uzaqlaşdırırlar

- Cəmiyyətin böyük əksəriyyəti isə kuirləri xaricdə qoyur

Bu ayrı-seçkiliyin altında yatan əsas fikir nəsil artırmaq qabiliyyəti və onun ətrafında qurulan “ailə” anlayışıdır ki, bu da cəmiyyətin qəbul etdiyi və qoruduğu əsas meyardır. Həm şüuraltı, həm də açıq şəkildə insanlar ailə və nəsil artırmağı “normal” olmağın ölçüsü kimi görür və kuirlər bu çərçivəyə sığmadıqları üçün sistemdən kənarda sayılırlar. Ən pisi, öz ailəmizi yaratmağımıza mane olurlar. Biz cəzalandırılırıq, təhqir edilirik, valideyn kimi qəbul edilmirik. Mən heteroseksuallara, lezbiyan və geylərin “müharibə zonasında” yaşadığını sübut etməyə məcbur qalmaqdan nifrət edirəm. Sanki bu qorxulu hadisələri təkcə biz görürük. Bizdən başqa heç kim bu ölən, döyülən, zorlanan, kədərdən və ya xəstəlikdən çökən bədənlərimizi və ruhlarımızı görmür. Mən o heteroseksual insanlardan da bezmişəm ki, kuirlərin qəzəbini dinləyə bilmirlər və dərhal “axı bütün heteroseksuallar elə deyil, mən də heteroyam, bilirsən də” deyə cavab verirlər. Elə bil ki, bu təkəbbürlü, heteroseksist dünyada lazımdan daha çox təriflənən onun eqosu deyil. Bu qədər haqlı qəzəbimiz varkən, niyə biz onların hislərini düşünməliyik ki?! Niyə hər dəfə “Əlbəttə, mən səni nəzərdə tutmuram. Sən belə deyilsən” deyərək onları rahatlaşdırmalıyıq? Bu qəzəbin onlara aid olub-olmadığını da qoy özləri düşünsünlər. Bizim qəzəbimizi dinləməkdənsə, hər cürə bəhanə tapıb bizi susdurmağa da çalışırlar. Ağzımızı açan kimi, “Mən elə deyiləm ki”, “İndi gör kim ümumiləşdirir”, “Şirin dilli olsan daha çox insan səni dinləyər”, “Mənfiyə fokuslanmaqdan ötrü ürəyin gedir də”, “Sən bu dünyada əziyyət çəkən tək insan deyilsən”, “Sakitləş, mənə qışqırma, mən sənin tərəfindəyəm”, “Həddindən artıq reaksiya verirsən”, “Dilin dinc dayanmır da sənin” deyirlər. Elə bir düşüncəyə sahibdirlər ki, sanki yaxşı kuir əsəbləşməz, dilini dinc saxlayar. Bunu o qədər bizə də öyrədiblər ki, biz də bir- birimizdən qəzəbimizi gizlədirik. Gülməlisi budur ki, bəzən özümüzdən də gizlədirik. Bu qəzəbi gizlətmək üçün narkotik asılılığına yönələ bilirik, özümüzü öldürürük, ya da öz dəyərimizi sübut edə bilmək ümidi ilə həddindən artıq vurnuxuruq. Çünki bizə öyrədilib ki, qəzəbli olmağa haqqımız yoxdur. Amma bu qəzəb, sağ qalmaq üçün lazımdır. Başa düşmürəm ki, niyə onlara bu narahatlığımızın səbəblərini göstərməməliyik? Bu qəzəb bir qırağamı atmalıyıq? Heç bu haqda düşünmüşükmü? Yenə də bizə qarşı durduqda “BASH BACK” (sənə vuranı sən də vur) şüarlarını görməyimiz bizi heyrətləndirir. Son on il ərzində biz çox

sürətlə öldürülürük... Amma biz hələ də bu cənablara təşəkkür edirik. QİÇS-lə yaşayanlar bəzən avtomobil qəzalarına bənzədilirlər. Kəmər taxmadıqları üçün günahkar sayılırlar. QƏZƏBİNİ İZAH ET! Qorxsan da, səssiz qalma! Sənin cəmiyyətdə görünür olmağın, yəni kimliyini gizlətmədən yaşamağın daim zorakılıq və təhdid risqi ilə qarşı-qarşıyadır. Bu, homofobların bizə yaşatdığı bir gerçəklikdir. Bu ölkədə bizim üçün tamamilə təhlükəsiz bir yer yoxdur. Heç bir yer!

Əgər bir hetero səninlə sərt danışıb, sonra da "Sakit ol, sən haqlısan" deyirsə, ona belə cavab ver: "Xeyr, sən də dəyişməlisən! Mənə bu dünyanın mənə qarşı olduğunu sübut etmək lazım deyil. Mən bunu onsuz hər gün hiss edirəm. Artıq dünyanı yalnız hetero cütlüklərin romantik şam işığında gəzintiləri ilə, onların toyları, ad günləri və əyləncələri ilə görmək istəmirəm. Bu məkanlar, bu həyat tərzi yalnız onlara məxsus olmamalıdır."

Onlara de ki: "Uzaqlaş və dəyişməyincə geri dönmə! Get və inqilabçı kuirlərin olmadığı o 'rahat' dünyanda yaşa. Mənə müdaxilə etməyə sənin haqqın yoxdur. Çünki bizim yaşadığımız qorxunu və ağrını sən yaşamırsan."

***Bu çağırış, həm qəzəbi, həm də haqlı narazılığı ifadə edir. Artıq səssizlik deyil. Dəyişikliyin zamanıdır.***

## Bizimlə Əlaqə

*Kuir kontentləri oxumaq üçün bizi izləmədə qalın-* https://qiyvaar.org

### Tərtibat və Tərcümə


**Tərcümə**: Ayla Əhmədova

**Dizayn**: Sənay Yağmur


**İstinad:**


"Queers Read This." ACT UP New York, 1990. Mövcuddur:

https://actupny.org/documents/QueersReadThis.pdf